C.K.Roulinq



# Harri Potter

# və

# Azkaban məhbusu

J.K. Rowling



# Harry Potter

# and

# The Prisoner of Azkaban

Harri Potter və dostları Hoqvartsda üçüncü illərinə qədəm qoyurlar. Sehr dünyasının isə bütün diqqəti, qüvvələri Azkaban həbsxanasından qaçmağı bacarmış sehrbaz, Qara Lordun sadiq xidmətçisi Sirius Blekin axtarışına yönəlib. Bəs görəsən, Blek və Harrini birləşdirən nədir? Görəsən, bu dəfə Sağ Qalmış uşağın macəraları nələr olacaq?

**J.K.Rowling HARRY POTTER AND THE PRISONER OF AZKABAN**
**C.K.Roulinq HARRİ POTTER VƏ AZKABAN MƏHBUSU**
Bakı, Qanun Nəşriyyatı, 2014, 456 səh.

Tərcüməçi: Fərid Hüseynli
Redaktor: Rövşən Ağayev
Korrektorlar: İradə Akifqızı, Vüqar Babazadə
Texniki redaktor: Əsəd Qaraqaplan

ISBN 978-9952-26-850-8

© Qanun Nəşriyyatı, 2014
© J.K.Rowling, 1999

All rights reserved; no part of this publication may be reproduced or transmitted by any means electronic, mechanical, photocopying or otherwise, without the prior permission of the publisher.

First published in Great Britain in 1999 by Bloomsbury Publishing Plc,
50 Bedford Square, London, WC1B 3DP
Harry Potter, names, characters and related indicia
are copyright and trademark Warner Bros., 2000 TM
The moral right of the author has been asserted

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları «Qanun» Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu»na ziddir.

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

I FƏSİL

# BAYQUŞ POÇTU

Harri Potter bir çox cəhətdən qəribə oğlan idi. Bütün uşaqlar kimi o, ən çox yay tətilinə nifrət edirdi. Lakin ev tapşırıqlarını yerinə yetirməyi sevirdi, amma bunu gecənin sakitliyində, hamı yuxuda olanda etməli olurdu, ən əsası isə Harri Potter sehrbaz idi.

Gecəyarısı yaxınlaşırdı. O, başını adyalın altında gizlədib qarnı üstə çarpayısında uzanmışdı. Bir əlində işıqsaçan fənər, o birində isə balışa söykədiyi dəri üzlüyü olan böyük bir kitab (Batilda Beqşot: "Sehrin tarixi") var idi. Harri qaşlarını çatıb gözlərini səhifə boyunca gəzdirdi. O, "XIV əsrdə ifritələrin yandırılması, sizcə, mənasız idi?" mövzusunda inşa yazmaq üçün məlumat axtarırdı.

Əlindəki lələyi oxuduğu mətnin bir cümləsində saxladı. Harri gözündən sürüşən eynəyini düzəldib, fənəri kitaba yaxınlaşdırdı. Mətni oxumağa başladı.

*"Damarlarında sehrbaz qanı axmayan insanlar (daha çox Maql adı ilə tanınanlar) orta əsrlərdə ovsun və cadudan qorxurdular. Lakin onlar ifritə və həqiqi sehrbazları bir-birilərindən ayırmaqda çətinlik çəkirdilər. Bəzi hallarda maqllar onları ələ keçirməyə nail olurdular və yandırırdılar. Lakin onlar əsl sehrbaz və ifritənin yanan alovu dondurmaq qabiliyyətindən xəbərsiz idilər. Sehrbazlar isə onları təhlükəsiz alovun içərisində olarkən əziyyət çəkərək yandıqlarına inandırırdılar. Hətta bu saxta səhnə bəzən çox dəhşətli görüntü yaradırdı. Bundan həzz alan ovsun sahibləri də var idi. Məsələn, Qəribə Vendelin adlı ifritə yandırılmağı çox sevirdi. Bəzi mənbələrdə deyilirdi ki, o bu hissi – yanmaq hissini yenidən yaşamaq üçün insanlar tərəfindən qırx yeddi dəfə oda atılmağa könüllü razılıq verib".*

Harri lələyi dişlərinin arasında saxlayıb balışın altından mürəkkəb qabını və perqamenti götürdü, ehtiyatla qabın ağzını açdı. Lələyi mürəkkəbə batırıb yazmağa başladı. Yazarkən arabir fasilə verib evdəki səslərə qulaq asdı. Durslilər ayaqyoluna gedərkən lələyin kağız üstündə çıxardığı xışıltını eşitsələr, bu, Harri üçün yay fəslinin qalan hissəsini pilləkənlərin altındakı zirzəmidə keçirməklə nəticələnərdi.

Dursli ailəsi Harrinin həyatdakı yeganə qohumları idi. Onlar "Privet Drayv" küçəsində 4 nömrəli evdə yaşayırlar. Harri yay tətilini onlarla birlikdə keçirir. Bu dövrdə o özünü sanki cəhənnəmdə hiss edir. Vernon əmi, Petunia xala və onların tək övladı olan Dadli. Ən azı orta əsrlərdəki insanlar qədər sehr və ovsundan qorxan maql ailəsi. Elə bu səbəbdən də Harrinin əsl sehrbaz olan valideynlərinin xatırlanmasına bu evdə qadağa qoyulmuşdu. Durslilər Harrini dayanmadan təhqir etməklə, incitməklə ondakı sehr-

bazlıq ruhunu məhv etməyə çalışsalar da bu işdə uğur əldə edə bilməmişdilər. Artıq iki il idi ki, yaxınlarının Harrinin Sehrbazlıq və Ovsun məktəbi olan "Hoqvarts"da təhsil aldığı xəbərini öyrənmələrindən qorxurdular. Bu sirrin üzə çıxması nümunəvi ailənin adına xələl gətirə bilərdi. Buna görə də Harri tətilə gələndə Dursli ailəsi onun sehrli məmulatlarını (kitablar, çubuq, süpürgə və s.) əlindən alıb zirzəmidə saxlayardılar. Oğlana qonşularla ünsiyyət qurmaq da qadağan edilmişdi.

Qonşularla ünsiyyət Harrini maraqlandırmasa da, kitablarından məhrum edildiyi üçün üzülürdü. Müəllimlərinin verdiyi tapşırıqlar həll edilməli idi. Yalnız kiçiltmə iksirləri mövzusunda professor Sneypin tapşırığı nəyə desən dəyərdi. Harri isə yeni dərs ilində Sneypin qabağına əliboş çıxsa, bu, faciə ilə nəticələnərdi. Sneypin Harridən xoşu gəlmirdi. Onun tapşırığı hazır olmasa, Harri bunun əvəzində bir neçə ay dərslərdən sonra sinfi sehr gücü olmadan təmizləməli olardı. Buna görə də dərslikləri əldə etmək vacib idi. Belə bir fürsət isə onun əlinə keçmişdi.

Tətilin elə başlanğıcında Vernon əmi öz yeni maşınını Dadli və Petunia xalaya göstərmək üçün onları qışqıraraq həyətə çağırdı. Bu yolla o, ətrafdakı insanların da diqqətini özünə cəlb etmək istəyirdi. Qoy insanlar onların yeni və gözəl maşın sahibi olduqlarından xəbərdar olsunlar. Onların sevincli anında Harri cəld zirzəmiyə enib oranın qapısını açdı. Bir neçə kitab götürüb sakitcə otağına qayıtdı. İndi o, həyəcandan  mürəkkəbi yatağına dağıtmasa, Durslilər onun etdiklərindən xəbər tutmayacaqlar.

O, Harri əmisi və xalası ilə getdikcə pisləşən münasibətləri üçün narahat idi və yeni problemlərin yaranmaması ilə

əlaqədar əlindən gələni edirdi. Onsuz da yaxınlarda ev telefonuna zəng vuraraq onun haqqında maraqlanan sehrbaz dostu Ron Uizli, istəməsə də, onun üçün problem yaratmışdı. Vernon əmi ilə onun söhbəti qısa olmuşdu.

"Vernon Dursli eşidir."

"Salam? Salam. Siz məni eşidirsiniz? Mən Harri Potterlə danışa bilərəm?"

Ron Uizli çox ucadan danışırdı. Qulaq tutulmasının qarşısını almaq üçün Vernon əmi dəstəyi özündən bir fut aralı tutub qışqırdı: "Danışan kimdir?"

"Ron. Ron Uizli. Mən Harrinin məktəb yoldaşıyam".

Vernon əmi gözlərini bərəldərək Harriyə baxdı.

"Burada Harri Potter adlı biri yaşamır", – o, təngnəfəs vəziyyətdə səsini yüksəltdi. – "Hansı məktəb haqqında danışdığınızı bilmirəm! Bizi daha narahat etməyin! Ailəmə də yaxınlaşmağa cürət etməyin!"

O, dəstəyi sanki əlində zəhərli hörümçək tuturmuş kimi yerinə çırpdı.

"Niyə kimə gəldi bizim nömrəni verirsən? Özün kimi birisinə!" – Əsəb onu boğurdu. Tüpürərək nəfəs almağa çalışdı.

Bu əhvalatdan sonra Harri üçün onlarla yaşamaq daha da ağırlaşdı. Dostlarından xəbər gəlmirdi. Ron daha zəng vurmurdu. Görünür, Durslilərin onun sehrbazlarla əlaqə saxlamağına icazə vermədiyini anlamışdı. Hermionadan da səs-səmir gəlmir, yəqin Ron onu xəbərdar edib. Əfsus!.. Axı Hermiona da maql ailəsindəndir. Telefonla necə rəftar etməli olduğunu bilir, üstəlik, o, sehrbazlıq məktəbində ikinci kurslar arasında ən savadlı şagird hesab olunur. Zəng vuranda "Hoqvarts"ın adını çəkməməyin vacibliyini dərk

etmək onun üçün çətin olmazdı. Lakin o, zəng vurmur. Bu isə Harrini daha da kədərləndirirdi.

Artıq bir aydır ki, o, dostları ilə əlaqə saxlamır. Bu yay da bir il əvvəlki kimi dəhşətli keçir, amma xırda irəliləyişlər var. Vernon əmi ona gecələr bayquşu – Hedviki qəfəsdən buraxmağa icazə verib. Bunun üçün Harri dayısına bayquşla məktub göndərməyəcəyinə söz verdi və o razılaşdı. Razılaşmağının digər səbəbi isə Hedvikin çox səs-küy salması idi. Bayquş qəfəsdə saxlanılmağı sevmirdi. Gecələr isə o uğuldayırdı. Onun səsinə qulaq asmaq əsl əzab idi.

Harri Vendelin haqqında yazısını bitirib ətrafa qulaq asdı. Sakitlik idi. Yalnız əmioğlu Dadlinin xorultusu eşidilirdi. Yəqin ki, artıq çox gecdir. Harri gözlərini zorla açıq saxlayır. Yatmaq lazımdır. Tapşırığı sabah axşam da tamamlamaq olar.

Harri mürəkkəbqabının qapağını kip sıxdı. Ayağa qalxıb yatağın altındakı balışüzünü çıxardı. Öz "Sehrin tarixi" və digər kitablarını, əlyazma, mürəkkəbqabı, lələk və fənərini balışüzünün içinə doldurdu. Əyilib döşəmənin üzərindəki parketlərdən tərpənənini çıxardı. Onun altında boşluq olduğundan bura sehrli ləvazimatları gizlətmək üçün ideal sığınacaq idi. Ayağa qalxıb elektron saat üzərindəki rəqəmlərə baxdı. O axı bunu necə unuda bilərdi? Bir saat əvvəl artıq onun on üç yaşı tamam olmuşdu.

Harrinin başqa bir fərqli cəhəti isə onun ad günlərinə o qədər də önəm verməməsi idi. Çünki bu gün o heç kəsdən təbrik eşitmir, açıqca qəbul etmirdi. Durslilər isə son iki ildə, ümumiyyətlə, onun ad gününü sanki unutmuşdular. Harri bu dəfə də onların bu adətinin dəyişəcəyinə şübhə etmirdi.